*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2015-ci il 15 may tarixli 9/84 saylı Qərarı ilə təsdiq edilmiş və 2019-cu il 15 mart tarixli 1/2 saylı Qərarı ilə dəyişiklik edilmişdir.*

# Azərbaycan Respublikasında keçirilən seçkilərdə namizədin gəlirlərinin miqdarı, mənbələri, mülkiyyəti və əmlakları barədə məlumatların təqdim edilməsi

# Q A Y D A L A R I

Azərbaycan Respublikasında keçirilən seçkilərdə namizədin gəlirlərinin miqdarı, mənbələri, mülkiyyəti və əmlakları barədə məlumatın təqdim edilməsi Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci, 58.1.4-cü, 58.1.5-ci və 58.3-cü maddələri ilə və bu Qaydalara uyğun olaraq həyata keçirilir.

## 1. Ümumi müddəalar

1.1. Namizədin qeydə alınması üçün namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi müvafiq seçki komissiyasına zəruri sənədlərlə birlikdə namizədin gəlirlərinin miqdarı, mənbələri və mülkiyyət hüququ əsasında ona məxsus əmlak haqqında məlumatlar təqdim etməlidir (Seçki Məcəlləsinə 5 saylı, bu Qaydalara 1 və 2 saylı əlavələr).

1.2. Həmin məlumatlar seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən əvvəlki bir illik dövrü əhatə etməlidir. Eyni zamanda, bu məlumata gəlirlərin alındığı təşkilatlardan və fiziki şəxslərdən həmin gəlirlərin cəmi barədə arayışlar əlavə olunur.

## 2. Bu Qaydalarda istifadə edilən anlayışların izahı

2.1. **Əsas iş yerindən əmək haqqı** dedikdə, vətəndaşlar tərəfindən mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərlə (müəssisə, idarə, təşkilat və s.) bağlanmış əmək müqavilələrinə (kontraktlara) əsasən konkret ixtisas, dərəcə və vəzifə üzrə işlərin yerinə yetirilməsi, yaxud sahibkarlıq fəaliyyəti subyektləri (fərdi sahibkar, kəndli-fermer təsərrüfatı, kooperativ və s.) ictimai və ya dini təşkilatlarda, vəkillik fəaliyyəti, xidməti və ya tədrislə əlaqədar əmək funksiyalarının yerinə yetirilməsinə görə ödənişlər başa düşülür.

2.2. **Mükafat və maddi yardım** dedikdə, il ərzində işin yekununa görə mükafat, xidmət illərinə görə mükafat, birdəfəlik xarakter daşıyan əlavə mükafatların bütün növləri, yubiley və bayram günləri, doğum günləri ilə bağlı

və digər oxşar hallarda verilən həvəsləndirici ödənişlər, əmək funksiyalarının yerinə yetirilməsinə görə digər mükafatlar və bütün növlərdən olan maddi yardımlar başa düşülür.

2.3. **Mülki-hüquqi müqavilələrdən əldə olunan gəlirlər** dedikdə, bağışlama, dəyişdirmə, vəzifənin icrası ilə əlaqədar olmayan işlərin (birdəfəlik və əvəzçilik üzrə) yerinə yetirilməsindən əldə edilən gəlirlər hesab edilir.

2.4. **Sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər** dedikdə, Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə nəzərdə tutulan və qanunla qadağan edilməyən fəaliyyət növlərindən əldə edilmiş gəlirlər (sahibkarlıqla məşğul olan fiziki şəxs (şəxslər) tərəfindən ilin yekununa görə vergi orqanlarına təqdim edilmiş bəyannamədə göstərilən gəlirlər) başa düşülür.

2.5. **Qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər** dedikdə, aşağıda göstərilənlər də daxil olmaqla, muzdlu işlə əlaqədar və ya sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərdən başqa digər gəlirlər başa düşülür:

2.5.1. banklardan alınmış faizlər;

2.5.2. dividentlər;

2.5.3. müəlliflik haqqı;

2.5.4. royalti;

2.5.5. qiymətli kağızlar üzrə əməliyyatlardan əldə edilən gəlirlər;

2.5.6. bağışlanmış borcun məbləği;

2.5.7. əmlakın icarəyə verilməsindən əldə edilən gəlirlər;

2.5.8. həyatın yığım sığortası üzrə gəlirlər;

2.5.9. ailə üzvü olmayan şəxslərdən alınan hədiyyələr və maddi yardımlar;

2.5.10. alınmış miraslar;

2.5.11. lotereya uduşları;

2.5.12. birgə gəlirlər (ər-arvadın birgə nikah dövründə əldə etdikləri əmlak və digər gəlirlər, ümumi birgə mülkiyyətdə olan əmlak və s.);

2.5.13. qanunla qadağan edilməyən digər gəlirlər.

2.6. Əmlak və mülkiyyət haqqında məlumatlar əmlakın və mülkiyyət hüququnun qeydiyyatını həyata keçirən müvafiq orqanlardan alınmış arayışlarla təsdiq olunur.

## 3. Yekun müddəalar

3.1. Bu Təlimat qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 28 avqust 2004-cü il tarixli 16/99 saylı Qərarı ilə təsdiq edilmiş "Bələdiyyə üzvlüyünə namizədin gəlirlərinin miqdarı, mənbələri, mülkiyyəti və əmlakı barədə məlumatın toplanması Qaydası", 4 iyul 2005-ci il tarixli 13/43 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədin gəlirlərinin miqdarı və mənbəyi, əmlakı barədə məlumatın toplanması Qaydası" və 18 iyun 2013-cü il tarixli 6/42 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentliyinə namizədin gəlirlərinin miqdarı, mənbələri, mülkiyyəti və əmlakları barədə məlumatların təqdim edilməsi Qaydası" qüvvədən düşmüş hesab edilir.

*Qaydalara 1 saylı əlavə*

**Namizədin gəlirlərinin miqdarı və mənbəyi haqqında**

**M Ə L U M A T**

______________________________________________________________________

*(namizədin soyadı, adı, atasının adı, doğulduğu tarix,*

______________________________________________________________________

*əsas iş və ya xidmət yeri, tutduğu vəzifə,*

______________________________________________________________________

*əsas iş və ya xidmət yeri olmadıqda – məşğuliyyəti,*

______________________________________________________________________

*yaşayış yerinin ünvanı)*

Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) ______________________

______________________________________________________________________

*(sahibkarlıq fəaliyyəti ilə məşğul olan doldurur)*

Məlumatın əhatə etdiyi dövr:

“_____” ____________________20____ ildən

“_____” ____________________20____ llədək

| **Dövrlər** | **Gəlirlərin mənbələri** | | | | | |
|---|---|---|---|---|---|---|
| **il,ay** | **əsas iş yerindən əmək haqqı** | **mükafat və maddi yardım** | **mülki-hüquqi müqavilələrdən gəlirlər** | **sahibkarlıq fəaliyyətindən gəlirlər** | **qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlər** | **cəmi** |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 20___ il | | | | | | |
| 20___ il | | | | | | |

**Gəlirlərim barədə təqdim etdiyim məlumatın düzgünlüyünü təsdiq edirəm:**

______________________

*(namizədin imzası)*

______________________

*(tarix)*

*Qaydalara 2 saylı əlavə*
*(Seçki Məcəlləsinə 5 saylı əlavə)*

# ƏMLAK BARƏSİNDƏ MƏLUMAT

Mən, ____________________ namizəd ___________________________________
*(təyin edilmiş seçkinin adı)*

_______________________________________________________________________
*(namizədin soyadı, adı, atasının adı, doğulduğu tarix,*

_______________________________________________________________________
*əsas iş və ya xidmət yeri, tutduğu vəzifə,*

_______________________________________________________________________
*əsas iş və ya xidmət yeri olmadıqda – məşğuliyyəti,*

_______________________________________________________________________
*yaşayış yerinin ünvanı)*

**mənə xüsusi mülkiyyət hüquqi əsasında ( o cümlədən, ümumi mülkiyyət hüququ əsasında) məxsus olan əmlakım haqqında məlumat verirəm:**

## 1. Daşınmaz əmlak

| Sıra sayı | Əmlakın növü və adı | Ölçü vahidi | Sahə | Əmlakın olduğu yer |
|---|---|---|---|---|
| 1 | Torpaq sahəsi | ha | | |
| 2 | Yaşayış sahəsi | kv.m. | | |
| 3 | Mənzillər | kv.m. | | |
| 4 | Bağlar | kv.m. | | |
| 5 | Qaraj və digər bina, tikili, avadanlıq | kv.m. | | |

## 2. Nəqliyyat vasitələri

| Sıra sayı | Nəqliyyat vasitəsinin növü | Say | Marka |
|---|---|---|---|
| 1 | Minik avtomobili | | |
| 2 | Yük avtomobili | | |
| 3 | Digər nəqliyyat vasitəsi | | |

**Əmlakım haqqında təqdim etdiyim məlumatın düzgünlüyünü təsdiq edirəm:**

______________________
*(namizədin imzası)*

______________________
*(tarix)*